AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
RİYAZİYYAT VƏ MEXANİKA İNSTİTUTU

Əlyazması hüququnda

ETİBAR SƏDİ oğlu PƏNAHOV

DİFERENSİAL OPERATORLAR ÜÇÜN SPEKTRAL VƏ POTENSİAL NƏZƏRİYYƏNİN BƏZİ TƏRS MƏSƏLƏLƏRİ VƏ TƏTBİQLƏRİ

1211.01- Diferensial tənliklər

Riyaziyyat üzrə elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

A V T O R E F E R A T I

Bakı - 2017

İş Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat Elmi Tədqiqat İnstitutunun "Tərs məsələlər və qeyri-xətti tənliklər" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi:

akademik **F. Ə. Əliyev**

Rəsmi opponentlər:

fizika-riyaziyyat elmləri doktoru, professor **N.Ş. İsgəndərov**
(Bakı Dövlət Universiteti)
fizika-riyaziyyat elmləri doktoru, professor **R.X.Əmirov**
(Cümhuriyyət Universiteti, Türkiyə)
riyaziyyat üzrə elmləri doktoru, professor **A.R. Əliyev**
(Azərbaycan Neft və Sənaye Universiteti)

Aparıcı təşkilat: **L.N. Qumilyov adına Avrasiya Milli Universiteti**
"Fundamental riyaziyyat" kafedrası

Dissertasiyanın müdafiəsi 26 may 2017-ci il tarixində saat 14^{00} -də Azərbaycan MEA Riyaziyyat və Mexanika İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.111 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Dissertasiya ilə Azərbaycan MEA Riyaziyyat və Mexanika İnstitutunun kitabxanasında tanış olmaq olar.

Ünvan: AZ1141, Bakı şəhəri, B. Vahazadə küç., 9

Avtoreferat 21 aprel 2017-ci il tarixində buraxılıb.

D.01.111 Dissertasiya
Şurasının elmi katibi **dos. Tamilla Həsənova**

İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

Mövzunun aktuallığı. Spektral analizin tərs məsələsi dedikdə bu və ya digər spektral xarakteristikalara əsasən xətti operatorun bərpa edilməsi nəzərdə tutulur. Bu xarakteristikalar müxtəlif sərhəd şərtlərinə uyğun spektrlər, spektral funksiyalar, nodal (düyün) nöqtələr, nodal uzunluqlar səpilmə verilənləri və s. ola bilər. Hal-hazırda adi differensial operatorların bəzi xüsusi sinifləri üçün tərs məsələlər yaxşı öyrənilmişdir. Belə operatorların ən sadəsi Şturm Liuvill operatorudur

$$l(y) = -y'' + q(x)y$$

Təqdim edilən dissertasiyada tərs məsələlərin bir neçə müxtəlif variantları araşdırılmış və həll edilmiş, spesifik sinqulyarlığa malik tənliklər üçün tərs məsələnin həlli verilmişdir. Analoji xüsusiyyətə malik spektral məsələlərin bəzi halları M.Coz, P.Roçus, B.M.Levitan, E.Titçmarş və s. işlərində baxılmışdır. Tərs məsələlər nəzəriyyəsinin inkişafına ciddi təkan vermiş ilk nəticə 1929-cu ildə V.A. Ambarsumyan tərəfindən alınmışdır. O, aşağıdakı teoremi isbat etmişdir:

$\lambda_0 < \lambda_1 < \lambda_2 < ....$ ilə

$$-y'' + q(x)y = \lambda y, \quad 0 \le x \le \pi, \tag{1}$$

$$y'(0) = y'(\pi) = 0,$$

Şturm-Liuvill məsələsinin məxsusi ədədlərini işarə edək. Burada $q(x)$ həqiqi kəsilməz funksiyadır. Əgər $\lambda_n = n^2$, $n = 0,1,2,...$, olarsa, onda $q(x) = 0$ olar.

Ambarsumyanın bu nəticəsinə diqqət edən ilk riyaziyyatçı İsveç riyaziyyatçısı Borq oldu. O ilk dəfə ən vacib tərs məsələlərdən birini, yəni klassik (1) Şrutm-Liuvill tənliyi üçün iki spektrə görə tərs məsələni sistematik olaraq araşdırdı. Borq göstərdi ki, ümumi halda bir spektr Şturm-Liuvill operatorunu təyin etmir. Yəni Ambarsumyanın nəticəsi xüsusi haldır. Bu işində Borq göstərdi ki, Şturm-Liuvill operatorunun müxtəlif sərhəd şərtlərinə uyğun iki spektri onu birqiymətli təyin edir. Daha dəqiqi Borq aşağıdakı teoremi isbat etmişdir:

$\lambda_0 < \lambda_1 < \lambda_2 < ....$ ilə (1) tənliyinin

$$y'(0) - hy(0) = 0, \quad y'(\pi) + Hy(\pi) = 0$$

şərtlərinə uyğun (burada h və H məhdud həqiqi ədədlərdir), $\mu_0 < \mu_1 < \mu_2 < ....$ ilə isə bu tənliyin

$$y'(0) - hy(0) = 0, \qquad y'(\pi) + H_1 y(\pi) = 0$$

şərtlərinə uyğun (burada H_1 - H -a bərabər olmayan məhdud həqiqi ədəddir) məxsusi ədədlərini işarə edək. Onda $\{\lambda_n\}_0^\infty$ və $\{\mu_n\}_0^\infty$ ardıcıllıqları $q(x)$ funksiyasını və h, H, H_1 ədədlərini birqiymətli təyin edir.

Borqun işlərindən sonra Levinson tərs məsələlər sahəsində vacib tədqiqatlar apardı. O, bu işlərində Borqun bəzi nəticələrinin daha sadə isbatlarını verdi.

Tərs məsələlər nəzəriyyəsində sonrakı ciddi uğurlar sovet riyaziyyatçıları V.A. Marçenko, M.Q. Kreyn, İ.M. Qelfand, B.M. Levitan, L.D. Faddeyev, M.G. Qasımov və başqaları tərəfindən əldə edildi.

Burada həlledici məqam o oldu ki, əvvəlcə V.A. Marçenko, sonra isə digər riyaziyyatçılar tərs məsələlərin həllinə çevirmə operatorlarını tətbiq etməyə başladılar. Bu operatorlar, əsası Fransiz riyaziyyatçısı J. Delsart tərəfindən qoyulmuş ümumiləşmiş sürüşdurmə operatorlarının ümumi nəzəriyyəsindən meydana çıxmışdı.

V.A. Marçenkonun fundamental əsərinin əsas nəticəsi belədir: Şturm-Liuvill operatorunun (ədəd oxunda və ya sonlu parçada) spektral funksiyası bu operatoru birqiymətli təyin edir.

1949-cu ildə V.A. Marçenkonun fundamental əsərinin çapından əvvəl A.N. Tixonov yeganəlik teoremini çap etdirdi. Bu teorem bəzi əlavə məhdudiyyətlər daxilində Marçenkonun teoreminə ekvivalentdir. A.N. Tixonovun yeganəlik teoremi belədir:

Tutaq ki, $u(x,\lambda)$ ($\lambda < 0$ olduqda)

$$-u'' + \lambda\rho^2(x)u(x,\lambda) = 0, \ x > 0, \ u(\infty) = 0$$

məsələsinin həllidir. Burada $\rho(x)$ hissə-hissə analitik funksiyadır, və $\rho(x) \ge \rho_0 > 0$. Fərz edək ki, $R(\lambda) = \dfrac{u'(0,\lambda)}{u(0,\lambda)}$. Onda $\lambda < 0$ olduqda $\rho(x)$ funksiyası $R(\lambda)$ funksiyasının qiymətləri ilə birqiymətli təyin olunur.

V.A.Marçenkonun işindən sonra M.Q.Kreyn Şturm-Liuvill operatorunun spektral funksiyaya və iki spektrə görə bərpa edilməsinin effektiv uüsulunu verən bir neçə məqalə çap etdirdi. B.M. Levitanın və M.G.Qasımovun məqaləsində Şturm-Liuvill tənliyinin iki spektrə görə bərpa edilməsi üçün effektiv üsul verilmişdir.

1951-ci ildə İ.M. Qelfand və B.M. Levitanın fundamental əsəri çap edildi. Burada Şturm-Liuvill operatorunun spektral funksiyaya görə bərpa edilməsi metodu verilidi və həmçinin verilən monoton funksiyanın Şturm-Liuvill operatorunun spektral funksiyası olması üçün (yarımoxda və ya sonlu parçada) kafi şərtlər tapıldı.

Sonralar İ.M. Qelfand və B.M.Levitanın bu əsəri həm Şturm-Luivill operatoru, həm də digər operatorlar (Şturm-Liuvill operatorunun diskret analoqu, xüsusi sinqulyar Şturm-Liuvill operatoru, matris Şturm-Liuvill məsələsi, differensial tənliklər sistemi, Dirak tip sistemlər, diffuziya tənlikləri və s.) üçün tərs məsələlərin effektiv həllində nümunəyə çevrildi.

Qeyd etmək lazımdır ki, səpilmə nəzəriyyəsinin müxtəlif tərs məsələlərinin effektiv həllində B.Y. Levin tərəfindən kəşf edilən və üzərinə sonsuzluqda şərt qoyulan çevirmə operatorları ciddi rol oynadılar.

İşin məqsədi. İşin məqsədi spektral və potensial nəzəriyyənin tərs məsələləri ilə bağlı aşağıdakı problemləri araşdırmaqdan ibarətdir:

1.Spektral analizin tərs məsələlərinin iki və qismən üst-üstə düşməyən iki spektrə görə araşdırılması. Spektral analizin tərs məsələsinin bir spektrə və qismən üst-üstə düşməyən potensiala görə araşdırılması, sinqulyar operatorlar üçün Xoxştat-Liberman və Maçozuku- Troşin tipli teoremlərin isbat edilməsi.

2.Dirak və diffuziya operatorları üçün tərs məsələlərin dayanaqlılığının araşdırılması.

3.İzospektral tərs məsələlərin tədqiqi.

4.Spektral məsələlərin baxılan intervalın daxili nöqtəsində kəsilmə olduqda tədqiqi.

5.Düz və tərs məsələlərin nodal nöqtələrə və nodal uzunluqlara görə tədqiqi.

6.Dirak və diffuziya operatorları üçün spektral Dirixle məsələsinin məxsusi ədədlərinin asimptotik ayrılışlarının tədqiqi.

7.Hidrogen atomunun tənliyi, inteqro-diferensial tənlikər və Kulon potensiallı Şturm-Liuvill tənliyi üçün Xoxştat teoreminin araşdırılması.

8.Loqarifmik potensiallar üçün aprior qiymətləndirmələrin alınması.

Tədqiqat metodu. Dissertasiya işində operatorların spektral nəzəriyyəsi, həqiqi və kompleks dəyişənli funksiyalar nəzəriyyəsi, funksional analiz, adi differensial tənliklər, riyazi fizika tənlikləri və klassik momentlər probleminin metodlarından istifadə edilmişdir.

Elmi yeniliklər. Dissertasiya işində aşağıdakı elmi nəticələr alınmışdır:

1. Bessel, Kulon tipli məxsusiyyəti olan ikinci tərtib differensial operatorlar, hidrogen atomu tənliyi, Dirak sistemi və diffuziya tənliyi üçün potensiallrın fərqi üçün düsturlar alınmışdır.
2. Tərs məsələlərin yeganəlik teoremləri isbat edilmişdir.
3. Çevirmə operatorunun və tərs məsələnin əsas inteqral tənliyinin nüvəsinin ümumiləşmiş cırlaşması araşdırılmış və Xoxştat teoreminə analoji nəticələr alınmışdır.
4. Sinqulyar və diffuziya tənliyi üçün Xoxştat-Liberman tipli teoremlər isbat edilmişdir.
5. Dirak sistemi və diffuziya tənliyi üçün qoyulmuş tərs məsələlərin dayanaqlılığı üçün zəruri şərtlər tapılmışdır.
6. Dirak operatoru və diffuziya tənliyi üçün Dirixle məsələsi öyrənilmiş, məxsusi ədədlər üçün asimptotik düsturlar alınmışdır.
7. İlk dəfə olaraq sinqulyar differensial tənliklər, kanonik Dirak opratoru və diffuziya operatoru üçün nodal nöqtələrə və nodal uzunluqlara görə tərs məsələlər öyrənilmişdir.
8. Mənbələrin sıxlıqlarının məhdudluğu şərti daxilində loqarifmik potensial üçün tərs məsələnin həllinin varlığı üçün zəruri və kafi şərtlər tapılmışdır.

İşin nəzəri və praktiki əhəmiyyəti. Kulon və Bessel məxsusiyyətli birölçülü Şredinger operatoru, Dirak operatoru, diffuziya operatoru və hidrogen atomunun tənliyi üçün müxtəlif spektral məsələlərin (düz və tərs məsələlərin) araşdırılması üçün riyazi metodlar verilmişdir. Tərs məsələlərin həllinin yeganəliyi və dayanaqlılığı haqqında teoremlərin yeni isbatı verilmişdir. İlk dəfə məxsusiyyəti olan tənliklər üçün nodal nöqtələrə və nodal uzunluqlara görə tərs məsələlər tədqiq olunmuşdur. Loqarifmik potensialın tərs məsələsinin həllinin aprior qiymətləndirilməsi alınmışdır.

Dissertasiyada alınmış nəticələr spektral analizin düz və tərs məsələləri nəzəriyyəsində, riyazi və kvant fizikasında, inteqral tənliklər nəzəriyyəsində tətbiqlərini tapa bilər. Sonuncu fəsildə alınan nəticələr potensial sahələrin müşahidə verilənlərinin harmonik sıralarla ədədi aproksimasiyasının dayanıqlığını artırılması üçün istifadə edilə bilər.

İşin aprobasiyası. Dissertasiyanın nəticələri aşağıdakı seminar və konfranslarda məruzə edilmişdir:

- Moskva Dövlət Universiteti, Mexanika Riyaziyyat Fakultəsi, Funksiyalar nəzəriyyəsi və funksional analiz kafedrası, B.M. Levitan, A.Q. Kostyuçenko, V.A. Sadovnicinin sədrliyi ilə keçirilən elmi seminarlar;
- Rusiya Elmlər akademiyasının Yer Fizikası İnstitutu, Tərs məsələlər şöbəsi, V.N. Straxov, M.A. Brodskinin sədrliyi ilə keçirilən elmi seminarlar;
- Azərbaycan Milli Elmlər Akademiyası, Riyaziyyat və Mexanika İnstitutu, Funksional analiz şöbəsi, F.Q. Maqsudovun sədrliyi ilə keçirilən elmi seminarlar;
- Bakı Dövlət Universiteti, Tətbiqi Riyaziyyat kafedrası, M.G. Qasımovun sədrltyi ilə keçirilən elmi seminarlar;
- Dehli Universiteti, Madras Riyaziyyat İnstitutu, Bangalor Tətbiqi Riyaziyyat İnstitutu (Hindistan,1989);
- Şərif Universiteti, Tehran (İran);
- İqtisadiyyat və Texnologiya Universiteti, Budapeşt, (Macarıstan);
- Fırat Universiteti, Elaziğ (Turkiyə);
- Bakı Dövlət Universiteti Tətbiqi Riyaziyyat ETİ-nin F.Ə. Əliyevin sədrliyi ilə keçirilən elmi seminarlar;
- Al-Farabi Qazaxıstan Milli Universiteti, Almatı, (Qazaxıstan);
- Yaxın Şərq Texniki Universiteti, (Turkiyə) O. Celebi, A. Zafer sədrliyi ilə keçirilən elmi seminarlar;
- Türkiyənin Universitetlərində seminarlar: TOBB İqtisadiyyat və Texnologiya Universiteti, Cankaya Universiteti, Yıldız Txniki Universiteti, Atatürk Universiteti, İnönü Universiteti, Anadolu Universiteti, Izmir Ege Universiteti

  Bundan başqa dissertasiyanın əsas nəticələri 40-dan çox Beynəlxalq Konfrans və Konqreslərdə məruzə olunmuşdur.
- Monpelye (Fransa) Tərs məsələlərin Fənlərarası aspektləri, (P.S. Sabatye, J. Leon, 1991);

- Berlin (Almanya), 1998, Beynəlxalq riyaziyyat konqresi;
- Pekin (Çin, 2002), Beynəlxalq riyaziyyat konqresi;
- Bakı (Azərbaycan) "Riyaziyyat və Mexanika" 10-cu Beynəlxalq Konfransı (2004);
- Honqkonq (Çin, 2010) Tərs məsələlər Beynəlxalq Konfransı, Honqkonq, Siti Universiteti;
- İzmir (Turkiyə, 2009) Dinamik Sistemlər 9-cu simpozium;
- I (Elazığ, Türkiyə, 1999), II (Sakarya, Turkiyə, 2007), III (Almata, Qazaxıstan, 2009), IV (Bakı, Azərbaycan 2011), V (Bişkek, Qırğızıstan, 2014) Türk Dünyası Riyaziyyat Cəmiyyətinin Konqresləri;
- Putra (Malayziya, 2000) Riyaziyyat və onun yeni minillikdə tətbiqləri adlı Beynəlxalq Konfrans;
- Brno (Çexiya, 1997), Masarık Universiteti, Ekuadif 9;
- Moskva (Rusiya,1996) Tərs və korrekt olmayan məsələlər;
- Novosibirsk (Rusiya);
- "Riyaziyyat və onun tətbiqləri"ı Beynəlxalq Avrasiya Konfransı.

Dissertasiyanın həcmi və strukturu. Dissertasiya işi girişdən, beş fəsildən və 186 adda istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın həcmi ədəbiyyat istisna olmaqla 271 səhifədir.

DISSERTASIYANIN QISA MƏZMUNU

Birinci fəsildə tərs məsələlərin bir variantı tədqiq olunur və həll edilir. Burada xüsusi sinqulyarlığa malik tənlik üçün tərs məsələnin həlli verilir. Analoji məxsusiyyətə malik spektral məsələlərin həlli bir çox müəlliflər tərəfindən tədqiq edilmişdir: Karlson R., Şadan K., Kram M., Qasımov M., Volk V., Staşevskaya V. Birinci və ikinci yarımfəsillərdə sıfırda məxsusiyyəti olan Şturm-Liuvill tənliyi üçün 2 qismən üst-üstə düşməyən spektrə görə tərs məsələnin həlli verilmişdir. Burada tərs məsələlərin həllində xüsusi əhəmiyyəti olan $q(x)-\tilde{q}(x)$ potensiallar fərqi üçün Xoxştat teoremi isbat olunmuşdur.

Teorem 1. Aşağıdakı məsələyə baxaq

$$Lu = -u'' + \left(q(x) + l(l+1)/x^2\right)u, \quad 0 < x \le 1 \tag{1}$$

$$u(0,\lambda)=0 \tag{2}$$

$$u(1,\lambda)\cos\beta+u'(1,\lambda)\sin\beta=0 \quad . \tag{3}$$

Burada $q(x)$ [0,1] parçasında kvadratı ilə cəmlənən funksiyadır. Tutaq ki, $\{\lambda_i\}$ L operatorunun (2) və (3) sərhəd şərtlərinə uyğun spektridir. (3) şərtini yeni

$$u(1,\lambda)\cos\gamma+u'(1,\lambda)\sin\gamma=0 \tag{4}$$

şərti ilə əvəz etsək, L operatorunun (2),(4) şərtlərinə uyğun $\{\lambda_i'\}$ spektrini alarıq.

Yeni

$$\tilde{L}u=-u''+\left(\tilde{q}(x)+l(l+1)/x^2\right)u, \tag{5}$$

operatoruna baxaq. Burada $\tilde{q}(x)$ [0,1] parçasında kvadratı ilə cəmlənən funksiyadır.

Tutaq ki, $\tilde{\lambda}_i$, $\tilde{L}$ operatorunun (2) və (3) şərtlərinə uyğun spektridir və sonlu sayda i indeksini çıxmaq şərtilə yerdə qalan indekslər üçün $\lambda_i=\tilde{\lambda}_i$ şərti ödənilir. Tutaq ki, $\{\lambda_i'\}$ $\tilde{L}$ operatorunun (2) və (4) şərtlərinə uyğun spektridir. Λ_0 ilə $\lambda_i\neq\tilde{\lambda}_i$ şərtini ödəyən indekslərin sonlu çoxluğunu, Λ ilə isə $\lambda_i'=\tilde{\lambda}_i$ şərtini ödəyən indekslərin sonsuz çoxluğunu işarə edək.

Yuxarıda qoyulan şərtlərdən alırıq ki,

$$q-\tilde{q}=\sum_{\Lambda_0}\left(\tilde{y}_n w_n\right)',\left('=\frac{d}{dx}\right). \tag{6}$$

Burada $\tilde{y}_n$ və w_n uyğun olaraq (1) və (5) tənliklərinin həlləridir. Xüsusi halda, əgər Λ_0 boş çoxluqdursa, onda sanki hər yerdə $q=\tilde{q}$.

Üçüncü yarımfəsildə bir tərs məsələ həll olunur. Burada xüsusi məxsusiyyətə malik tənlik üçün yarım-tərs məsələnin həlli verilir. Qeyd edək ki, yarım-tərs məsəslə ilə bağlı ilk nəticə Xoxştat və Liberman tərəfindən alınmışdır.

Bu yarımfəsildə məxsusiyyətə malik diferensial operator üçün yarım-tərs məsələ həll edilir. Göstərilir ki, əgər $q(x)$ potensialı (1/2,1] yarım-parçasında verilibsə, onda $q(x)$ potensialının (0,1/2] yarım-parçasında təyin olunması üçün bir spektrin verilməsi kifayətdir. Burada (1) tənliyi üçün (3) sərhəd şərtləri və

$$\lim_{x\to 0}\frac{u(x,\lambda)}{x^{l}}=\frac{1}{2^{l+1}\Gamma\left(l+(3/2)\right)} \tag{7}$$

şərti daxilində yarım-tərs məsələyə baxılır. Fərz edilir ki, $q(x)$ kvadratı ilə inteqrallanan həqiqi qiymətli funksiyadır. L operatoru $L_2[0,1]$ -də öz-özünə qoşmadır. (1),(2),(7) məsələsinin spektri həqiqi və sadə $\{\lambda_n\}$ məxsusi ədədlərindən ibarətdir. Əgər (3) şərtini (4) şərti ilə əvəz etsək, onda L operatorunun yeni $\{\lambda_n'\}$ spektrini alarıq. Burada fərz edilir ki, $\sin(\beta-\gamma)\neq 0$. Bu informasiya $\{\lambda_n\}$ spektri və (1), (2), (7) məsələsinin spektri ilə birlikdə (0,1] intervalında $q(x)$ funksiyasını birqiymətli təyin edir. Beləliklə, aşağıdakı teorem isbat edilir.

Teorem 2. Tutaq ki, $\{\lambda_n\}$ həm (1),(2),(3), həm də (5),(2),(3) məsələsinin spektridir. Əgər (1/2,1]-də $q(x)=\tilde{q}(x)$ olsa, onda bütün $x\in(0,1]$ üçün sanki hər yerdə $q(x)=\tilde{q}(x)$ olar.

Diferensial operator üçün daxili spektral verilənlərə görə tərs məsələ məxsusi ədədlərə və məxsusi funksiyalar üzərinə qoyulan şərtlərə görə parçanın daxili nöqtələrində operatorun bərpa edilməsindən ibarətdir. Requlyar Şturm-Liuvill operatoru və kəsilən Şturm-Liuvill məsələsi üçün belə tərs məsələ müxtəlif müəlliflər tərəfindən araşdırılmışdır.

Dördüncü yarımfəsildə belə məsələ sinqulyar Şturm-Liuvill operatoru üçün baxılmışdır. (1),(2),(3) və (5),(2),(3) sinqulyar məsələlərinə baxaq. Burada $q(x)$ və $\frown{q}(x)$ həqiqi qiymətli funksiyalardır, $q\in L_2(0,1)$, $\frown{q}\in L_2(0,1)$, λ spektral parametrdir, $\ell\in \mathrm{N}_0$, $\beta\in\mathrm{R}$. L ($\frown{L}$) operatoru öz-özünə qoşmadır və $\{\lambda_n\}$ ($\{\frown{\lambda}_n\}$) diskret spektrinə malikdir. (1)-(3) məsələsinin məxsusi ədədləri (3) tənliyinin kökləridir və aşağıdakı asimptotik düstur doğrudur

$$\rho_n = \sqrt{\lambda_n} = \pi\left[n + \frac{\ell+1}{2}\right] + O\left(\frac{1}{n}\right). \qquad (7)$$

$b = \frac{1}{2}$ halında aşağıdakı nəticə isbat edilir.

Teorem 3. Tutaq ki, bütün $n \in \mathrm{N}$ üçün

$$\lambda_n = \widehat{\lambda}_n, \ \frac{y_n'(\frac{1}{2})}{y_n(\frac{1}{2})} = \frac{\widehat{y}_n'(\frac{1}{2})}{\widehat{y}_n(\frac{1}{2})} \qquad (8)$$

ödənilir. Onda $(0,1]$ intervalında sanki hər yerdə $q(x) = \widehat{q}(x)$.

$b \neq \frac{1}{2}$ olduqda $q(x)$ -in yeganəliyi ikinci spektrə aid əlavə informasiya verməklə isbat edilə bilər.

Tutaq ki, $\{m(n)\}_{n\in \mathrm{N}}$

$$m(n) = \frac{n}{\sigma}(1+\varepsilon_n), \ 0 < \sigma \leq 1, \varepsilon_n \to 0 \qquad (9)$$

şərtini ödəyən natural ədədlər ardıcıllığıdır.

Lemma 1. Fərz edək ki, $\{m(n)\}_{n\in \mathrm{N}}$ natural ədədlər ardıcıllığı (9) şərtini ödəyir və $b \in (0, \frac{1}{2}), \sigma > 2b.$Əgər bütün $n \in \mathrm{N}$ üçün

$$\lambda_{m(n)} = \widehat{\lambda}_{m(n)}, \ \frac{y_{m(n)}'(b)}{y_{m(n)}(b)} = \frac{\widehat{y}_{m(n)}'(b)}{\widehat{y}_{m(n)}(b)} \qquad (10)$$

olarsa, onda (0,b] intervalında sanki hər yerdə $q(x) = \widehat{q}(x)$.

Tutaq ki, $\{l(n)\}_{n\in \mathrm{N}}$ və $\{r(n)\}_{n\in \mathrm{N}}$ elə ardıcıllıqlardır ki,

$$l(n) = \frac{n}{\sigma_1}(1+\varepsilon_{1,n}), \ 0 < \sigma_1 \leq 1, \varepsilon_{1,n} \to 0 \qquad (11)$$

$$r(n) = \frac{n}{\sigma_2}(1+\varepsilon_{2,n}), \ 0 < \sigma_2 \leq 1, \varepsilon_{2,n} \to 0 \qquad (12)$$

və μ_n (1), (2), (4) məsələsinin, $\widehat{\mu}_n$ isə (5), (2), (4) məsələsinin məxsusi ədədləridir.

Maçozuku-Troşin metodundan, Lemma 1 və Teorem 3-dən istifadə etməklə aşağıdakı teorem isbat edilir.

Teorem 4. Tutaq ki, $\{l(n)\}_{n\in \mathrm{N}}$ və $\{r(n)\}_{n\in \mathrm{N}}$ natural ədədlər ardıcıllığı (11) və (12) şərtlərini ödəyir və $\sigma_1 > 2b-1, \sigma_2 > 2-2b$. Əgər hər bir $n \in \mathrm{N}$ üçün

$$\lambda_n = \widehat{\lambda}_n,\ \mu_{l(n)} = \widehat{\mu}_{l(n)} \text{ and } \frac{y'_{r(n)}(b)}{y_{r(n)}(b)} = \frac{\widehat{y}'_{r(n)}(b)}{\widehat{y}_{r(n)}(b)} \tag{13}$$

ödənirsə, onda (0,1] intervalında sanki hər yerdə $q(x) = \widehat{q}(x)$.

5-ci yarımfəsildə

$$Ly \equiv -y'' + \left[\frac{A}{x} + q(x)\right], \tag{14}$$

Kulon tipli məxsusiyyətə malik Şturm-Liuvil operatoru üçün tərs məsələnin əsas inteqaral tənliyinin ümumiləşmiş cırlaşan olduğu göstərilir. 6-cı yarımfəsildə isə inteqral diferensial tənliklər üçün

$$\tilde{\varphi}(x,\lambda) = \varphi(x,\lambda) + \int_0^x K(x,t)\varphi(t,\lambda)dt. \tag{15}$$

çevirmə operatorunun nüvəsinin ümumiləşmiş cırlaşan olduğu isbat edilir. Son illərdə inteqro-diferensial operatorlar üçün spektral məsələlərin araşdırılması böyük maraq doğurur (Yurko, Buterin, Kudryaşova, Frelinq və digərləri). Requlyar və sinqulyar Şturm-Liuvil və dirak operatorları üçün ümumiləşən cırlaşma məsələləri B.M. Levitan və E.S. Pənahovun işlərində ətraflı araşdırılmışdır. Xüsusi halda, bu işlərdə Xoxştat teoreminin sadə isbatı verilmişdir. İnteqro-diferensial operatorlar üçün əsas nəticəni aşağıdakı teorem ilə ifadə edək.

Teorem 5. Aşağıdakı məsələyə baxaq.

$$Ly(x) \equiv -y''(x) + q(x)y(x) + \int_0^x M(x-t)y(t)dt = \\ = \lambda^2 y(x),\ 0 \le x \le \pi, \tag{16}$$

$$y'(0) - \lambda y(0) = 0, \tag{17}$$

$$y'(\pi,\lambda) + Hy(\pi,\lambda) = 0. \tag{18}$$

(16),(17),(18) məsələsinin spektrini $\{\lambda_n\}$ ilə işarə edək. (18) şərtinin yerinə

$$y'(\pi,\lambda) + H_1 y(\pi,\lambda) = 0, \tag{19}$$

şərtini götürək. Bu halda L operatorunun yeni $\{\mu_n\}$ spektrini alarıq. İndi isə ikinci məsələyə baxaq:

$$\tilde{L}y(x) \equiv -y''(x) + \tilde{q}(x)y(x) + \int_0^x \tilde{M}(x-t)y(t)\,dt = \\ = \lambda^2 y(x),\ 0 \le x \le \pi. \tag{20}$$

$$y'(0) - \lambda y(0) = 0,$$
$$y'(\pi,\lambda) + \tilde{H}y(\pi,\lambda) = 0, \tag{21}$$

Hər bir n üçün $\{\lambda_n\}$ ilə üst-üstə düşən (20), (17), (21) məsələsinin spektri $\{\tilde{\lambda}_n\}$ olsun. (21) şərtini (22) ilə əvəz edək.

$$y'(\pi,\lambda) + \tilde{H}_1 y(\pi,\lambda) = 0, \tag{22}$$

(20),(17),(22) məsələsinin spektrini $\{\tilde{\mu}_n\}$ ilə göstərək. Burada H, H_1; $H \ne H_1$ и $\tilde{H}$, $\tilde{H}_1$ sonlu həqiqi ədədlərdir. Əgər $\{\lambda_n\}$ və $\{\tilde{\lambda}_n\}$ spektrləri üst-üstə düşürlərsə, $\{\mu_n\}$ və $\{\tilde{\mu}_n\}$ spektrləri isə sonlu sayda hədlər üçün fərqlidirsə: $n \in \Lambda_0 = 1,2,....,N,$ onda $K(x,t)$ nüvəsi ümumiləşmiş cırlaşandır, yəni

$$K(x,t) = \sum_{\Lambda_0} c_n \tilde{\varphi}_n(x)\varphi_n(t), \tag{23}$$

burada φ_n və $\tilde{\varphi}_n$ (16) və (20) tənliklərinin həlləridir.

Qeyd edək ki, (23) düsturu həyəcanlanmanın sonlu ölçülü olması ilə əlaqədardır.

İkinci fəsildə kanonik Dirak operatorları üçün spektral analizin düz və tərs məsələlərinin bəzi aspektləri araşdırılır. Bu tip məsələlərə ilk dəfə fiziklər Mozes, Prats, Toll, Verde və başqaları baxmışlar. Dirak operatoru üçün çevirmə operatorunun qurulması fransız riyaziyyatçıları J. Delsart və J. Loins tərəfindən baxılmışdır. Daha sonrakı illərdə Dirak sistemi üçün spektral məsələlərin araşdırılmasına fizik və riyaziyyatçıların çox sayda işləri həsr olunmuşdur. M.G. Qasımov, B.M. Levitanın yarım-oxda spektral funksiyaya görə və M.G. Qasımov, C.Cəbiyevin isə sonlu intervalda iki spektrə görə tərs məsələlərin həllinə aid işləri həsr edilmişdir. İki qismən üst-üstə düşməyən spekrə görə tərs məsələ ilk dəfə E.Pənahovun işlərində baxılmışdır və əsas inteqral tənliyin ümumiləşən cırlaşan olması isbat edilmişdir. 1-ci yarımfəsildə kanonik Dirak operatorları üçün $Q(x)-\tilde{Q}(x)$ potensiallar fərqinə aid Xoxştat teoremi isbat edilmişdir.

Teorem 6. Fərz edək ki, $\{\lambda_i\}$ $(i=0,\pm1,\pm2,...)$ aşağıdakı məsələnin spektridir

$$Ly = By' + Q(x)y = \lambda y, x \in [0,\pi] \tag{24}$$

$$y_2(0,\lambda)\cos\alpha + y_1(0,\lambda)\sin\alpha = 0 \tag{25}$$

$$y_2(\pi,\lambda)\cos\beta + y_1(\pi,\lambda)\sin\beta = 0 \tag{26}$$

harada ki,

$$\mathrm{B} = \begin{pmatrix} 0 & 1 \\ -1 & 0 \end{pmatrix}, Q(x) = \begin{pmatrix} p(x) & q(x) \\ q(x) & -p(x) \end{pmatrix}, y(x,\lambda) = \begin{pmatrix} y_1(x,\lambda) \\ y_2(x,\lambda) \end{pmatrix},$$

və *p(x), q*(x) $[0,\pi]$ də həqiqi qiymətli inteqrallanan funksiyalardır. Əgər (26) şərtini

$$y_2(\pi,\lambda)\cos\gamma + y_1(\pi,\lambda)\sin\gamma = 0, \tag{27}$$

əvəz etsək L operatorunun yeni $\{\lambda_i'\}$ spektrini alarıq.

İndi isə ikinci Dirak tənliyinə baxaq

$$\tilde{L}y = \lambda y, \left(\tilde{L} = B\frac{d}{dx} + \tilde{Q}(x)\right) \tag{28}$$

$\{\tilde{\lambda}_i\}_{-\infty}^{\infty}$ və $\{\tilde{\lambda}'_i\}_{-\infty}^{\infty}$ ilə uyğun olaraq (28), (25), (26) və (28), (25), (27) məsələlərinin spektrlərini işarə edək. Əgər $\{\lambda_i'\} = \{\tilde{\lambda}_i'\}$ $(i=0,\pm1,\pm2,...)$ və $\{\lambda_i\} \neq \{\tilde{\lambda}_i\}, i=1,2,....,N;$ $\{\lambda_i\} = \{\tilde{\lambda}_i\}, i=N+1,N+2,.....;$ onda

$$\begin{aligned} q(x)-\tilde{q}(x) &= \sum_{\Lambda_0} P_n(x), \\ p(x)-\tilde{p}(x) &= \sum_{\Lambda_0} S_n(x), \end{aligned} \tag{29}$$

harada ki $P_n(x)$, $S_n(x)$ funksiyaları $\tilde{y}_n(x,\lambda), w_n(x,\lambda)$ və onların törəmələrinin xətti kombinasiyalarından ibarətdir. $w_n(x,\lambda), \tilde{y}_n(x,\lambda)$ sıra ilə (24) və (28) tənliklərinin həlləridir. Xüsusi halda əgər ikinci məxsisi ədədlər tamamilə üst-üstə düşərsə, onda $Q(x) = \tilde{Q}(x)$.

İkinci yarımfəsildə Dirak operatoru üçün dayanıqlıq məsələsinin bir variantı araşdırılır. Tütaq ki, $\{\lambda_n, \rho_n\}$ və $\{\mu_n, \sigma_n\}$ uyğun olaraq (24),(25),(26) və (28),(25),(26) məsələlərin spektral xarakteristikalarıdır, burada $\{\lambda_n\}(\{\mu_n\})$ məxsusi ədədlərdir, $\{\rho_n\}(\{\sigma_n\})$ isə normallaşdırıcı ədədlərdir.

Bu hissədəki əsas nəticə aşağıdakı teoremlə ifadə edilr.

Teorem 7. Əgər

$$M \equiv \sum_{n=1}^{\infty} \left\{ |\sigma_n - \alpha_n| + |\mu_n - \lambda_n| \right\} \tag{30}$$

kifayət qədər kiçikdirsə, onda

$$\begin{aligned} &\max_{0 \le x \le \pi} \left| \widehat{p}(x) - p(x) \right| \le C'M \\ &\max_{0 \le x \le \pi} \left| \tilde{q}(x) - q(x) \right| \le C''M \end{aligned} \tag{31}$$

burada $C' > 0$ və $C'' > 0$ sabit ədədlərdir.

İzospektral məsələlər skalyar halda bir çox riyaziyyatçılar tərəfindən araşdırılmışdır (Borq, Trubovits, Poşçel). Daha sonra Jodeyt, Levitan və Çern skalyar və vektorial halda bu məsələlərin həlli üçün yeni metodlar tətbiq etmişlər. Bektor halında Şturm-Liuvill tənliyi üçün izospektral məsələ Çern tərəfindən baxılmışdır.

Tərs məsələnin əsas inteqral tənliyinə baxaq:

$$K(x,y) + F(x,y) + \int_0^x K(x,t)F(t,y)dt = 0, \ 0 \le y \le x \le \pi, \tag{32}$$

3-cü yarımfəsildə alınan əsas nəticələr aşağıdakılardır.

Teorem 8. (32) inteqral tənliyinin həlli

$$B\frac{\partial K}{\partial x} + Q(x)K(x,y) = -\frac{\partial K}{\partial y}B + Q_0(y)K(x,y). \tag{33}$$

tənliyini ödəyir.

Əlavə olaraq aşağıdakı ifadə ödənilir

$$Q(x) = Q_0(x) + BK(x,x) - K(x,x)B. \tag{34}$$

Eyni zamanda $K(x,y)$

$$BK(x,x) - K(x,x)B = Q(x) - Q_0(x), \tag{35}$$

$$K_{21}(x,0) = K_{11}(x,0) = 0. \tag{36}$$

şərtlərini ödəyir.

Teorem 9. Əgər $K(x,y)$ funksiyası (32) tənliyinin həllidirsə, onda (33),(35),(36) məsələsinin də həlli olur, bu zaman

1) hər kompleks qiymətli λ üçün

$$\varphi(x,\lambda)=\varphi_0(x,\lambda)+\int_0^x K(x,t)\varphi_0(t,\lambda)dt, \tag{37}$$

funksiyası

$$By'+Q(x)y=\lambda y,\ 0\le x\le\pi, \tag{38}$$

tənliklər sisteminin həllidir. Burada (34) şərti ödənilir.

2) Vektor qiymətli $\varphi(x,\lambda)$ funksiyası

$$\varphi_1(0,\lambda)=1, \varphi_2(0,\lambda)=h_0=h. \tag{39}$$

şərtini ödəyir. 4-cü yarımfəsildə parçanın daxili nöqtəsində kəsilmə olan halda Dirak operatoru üçün spektral məsələ araşdırılır. Xüsusi halda varlıq və yeganəlik teoremləri isbat edilmişdir. Aşağıdakı Dirak tənliklər sisteminə

$$\begin{aligned} &u_2'(x)+\left[p(x)u_1(x)+q(x)u_2(x)\right]=\lambda u_1(x),\\ &u_1'(x)-\left[q(x)u_1(x)-p(x)u_2(x)\right]=-\lambda u_2(x), \end{aligned} \tag{40}$$

özündə λ parametrini saxlayan

$$l_1u:=\lambda u_1(-1)+\left(\lambda-a\right)u_2(-1)=0, \tag{41}$$

$$l_2u:=u_1(1)-u_2(1)=0 \tag{42}$$

və sıfırda kəsilmə olan halda

$$\begin{aligned} &l_3u:=u_1(0^-)=\delta u_1(0^+),\\ &l_4u:=u_2(0^-)=\delta u_2(0^+). \end{aligned} \tag{43}$$

sərhəd şərtlərinə baxaq. Burada $p(x)$ və $q(x)$ uyğun olaraq, [-1,0) və (0,1] intervallarında həqiqi qiymətli kəsilməz və aşağıdakı şəkildə sonlu limitləri olan funksiyalardır:

$$p(0^{\pm})=\lim_{x\to0^{\pm}}p(x),\ q(0^{\pm})=\lim_{x\to0^{\pm}}q(x);\ a,\delta\in\mathbb{R}, a>0, \delta\ne0.$$

Qeyd edək ki, $\mathbb{C}^2=\mathbb{C}\oplus\mathbb{C}$, $L=L_2\left(-1,0\right)\oplus L_2\left(0,1\right)$ olan halda $H=L_2\left(-1,0\right)\oplus L_2\left(0,1\right)\oplus\mathbb{C}^2$ Hilbert fəzasında

$$U(x)=\left(u_1(x),u_2(x),u_3\right)^{\mathrm{T}},\ V(x)=\left(v_1(x),v_2(x),v_3\right)^{T}\in H$$

elementlərinin skalyar hasili aşağıdakı şəkildə təyin olunur:

$$\langle U,V\rangle_H := \int_{-1}^{0} u^T(x)\overline{v}(x)dx + \delta^2\int_{0}^{1} u^T(x)\overline{v}(x)dx + \frac{1}{a}u_3\overline{v}_3, \tag{44}$$

harada ki, $u_i, v_i \in L_2(-1,1),\ i=1,2,\ u_3, v_3 \in \mathbb{C}$.

$A: D(A) \subseteq H \to H$. operatorunu aşağıdakı şəkildə təyin edək:

$U(x) = (u_1(x), u_2(x), u_3)^{\mathrm{T}} \in D(A)$, burada $u_{1(i)}, u_{2(i)} (i=1,2)$ funksiyaları uyğun olaraq [-1,0) və (0,1] yarım-intervallarında mütləq kəsilməz funksiyalardır və sonlu $u_i(0^{\pm}), l(u) \in H,\ l_1u = l_3u = l_4u = 0$ limitləri vardır.

$$AU = \left(u_2' + p(x)u_1 + q(x)u_2,\ u_1' - q(x)u_1 - p(x)u_2,\right.$$
$$\left.-R_{-1}(u),\ u_1(1) - u_2(1)\right)^T U \in D(A)$$

Beləliklə (40)-(43) məsələsini $AU = \lambda U$ operator şəklində yaza bilərik.

A operatoru üçün klassik nəticələr ödənir: A simmetrikdir, məxsusi ədədləri həqiqidir, müxtəlif məxsusi ədədlərə uyğun gələn məxsusi funksiyalar ortoqonaldır:

$$\int_{-1}^{0} u^T(x,\lambda_1)\overline{v}(x,\lambda_2)dx + \delta^2\int_{0}^{1} u^T(x,\lambda_1)\overline{v}(x,\lambda_2)dx + \tag{44}$$
$$+\frac{1}{a}\tilde{R}_{-1}(u)\tilde{R}_{-1}(\overline{v}) = 0.$$

(40)-(43) məsələsinin məxsusi ədədləri sadədirlər və

$$\begin{aligned} w_i(\lambda) &= W(\varphi(x,\lambda), \psi(x,\lambda)) \\ &= \varphi_{1i}(x,\lambda)\psi_{2i}(x,\lambda) - \varphi_{2i}(x,\lambda)\psi_{1i}(x,\lambda), \\ & x \in [-1,0)\ (x \in (0,1]), \end{aligned} \tag{45}$$

funksiyasının kökləridir. Eyni zamanda $w_i(\lambda)$ ($i=1,2$) funksiyalarının sıfırları üst-üstə düşürlər.

Teorem 10. (40)-(43) məsələsinin λ_n məxsusi ədədləri aşağıdakı asimptotik düsturu ödəyir:

$$\lambda_n = \frac{a(1+n\pi)}{2(a+1)} + O\left(\frac{1}{n}\right),\ n = 0, \pm 1, \pm 2, ... \tag{46}$$

Sonuncu yarımfəsildə Dirak operatorunun ikinci kanonik şəklinə baxılıb və aşağıdakı nəticə alınıb.

Teorem 11. Dirixle məsələsinin

$$\varphi_1' + \{\lambda + q(x)\}\varphi_2 = 0, \tag{47}$$

$$\varphi_2' - \{\lambda + p(x)\}\varphi_1 = 0, \tag{48}$$

$$\varphi_2(0,\lambda) = 0, \quad \varphi_2(1,\lambda) = 0 \tag{49}$$

məxsusi ədədləri üçün aşağıdakı asimptotik düstur doğrudur:

$$\mu_n = n\pi - \frac{1}{2}\left[\int_0^1 p(t)dt + \int_0^1 q(t)dt\right] + O\left(\frac{1}{n}\right). \tag{50}$$

burada $p(x), q(x) \in L^2[0,1]$.

3-cü fəsil diffuziya operatoru üçün spektral məsələlərin araşdırılmasına həsr edilmişdir. Şturm-Liuvill tənliyindən kifayət qədər fərqli olan diffuziya tənliyi üçün spektral analizin düz və tərs məsələlərinin öyrənilməsinə maraq son illərdə artmışdır. Qeyd edək ki, stasionar Kleyn-Qordon tənliyində

$$\left[\left(i\frac{\partial}{\partial t} - e\phi\right)^2 - \left(\frac{1}{i}\nabla - e\vec{A}\right)^2\right]\psi = m^2\psi, \tag{51}$$

dəyişənlərin əvəzləməsindən istifadə edərək sferik koordinatlarda diffuziya tənliyini aşağıdakı şəkildə yaza bilərik

$$\psi''(r) + \left[V^2 - 2KV\right]\psi(r) = -K^2\psi, \tag{52}$$

burada $E = K$. (52) tənliyi klassik Şredinger tənliyidir.

